# Qəbələdə Beynəlxalq konqres keçirilmişdir

Mayın 20-də Qəbələdə Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyasının və Azərbaycan ərazilərinin Ermənistanın silahlı təca-





vüzü nəticəsində məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun təşkilatçılığı ilə XIV beynəlxalq konqres keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə, sonra isə Qarabağ döyüşlərində həlak olan qəbələlilərin xatirəsinə ucaldılmış memorial kompleksə gül dəstələri düzmüşlər. "Qafqaz Riverside" Otelinin konfrans zalında keçirilən beynəlxalq tədbirdə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov tədbirdə çıxış edərək qonaqları salamlamış, konqresin işinə uğurlar arzulamışdır. Azərbaycan, Rusiya, Ukrayna, Türkiyə, Bolqarıstan, Gürcüstan, Moldova və Belarus respublikalarının nümayəndələrinin qatıldığı beynəlxalq konqresdə Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyasının idarə heyətinin üzvü, Milli Məclisin deputatı Xanhüseyn Kazımlı Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin məruz qaldığı, dəyəri trilyon dollarlarla ölçülən itkilər və tələfatların miqyası haqqında məlumat vermişdir. Çıxış edənlər işğal altındakı ərazilərdə mövcud infrastrukturun məhv olması, faydalı qazıntılar, meşələr, xüsusi mühafizə olunan təbiət əraziləri və tarixi abidələr kimi çoxçeşidli təbii sərvətlərimizin amansızlıqla talan edilməsi, fauna və floranın azalması, Metsamor AES-in istifadəyə yararlılıq müddətinin bitməsi ilə əlaqədar ətraf mühitə ağır ekoloji təsirlər və digər bu kimi faktları diqqətə çatdırmışlar. Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyasının baş direktoru Nikolay Trifonov növbəti ildə bu qruma rəhbərliyin Azərbaycan tərəfinə keçəcəyi barədə məlumat vermişdir. Daha sonra müxtəlif ölkələrdən olan ekspertlər beynəlxalq səviyyəli münaqişələrin çoxalmasını və bunlara dünya birliyi tərəfindən ikili yanaşmaların mövcud olduğunu bildirmişlər. Konqresin gedişində təmsilçilər Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyasının qiymətləndiriciləri tərəfindən hazırlanan "standart" layihəsinin təsdiq edilməli olduğu barədə dəyərli fikirlər söyləmişlər. Natiqlər "standart" layihəsinin təsdiq edilməsinin ölkəmizin öz haqqını beynəlxalq səviyyədə tələb etməyə hüquqi imkan verəcəyini bildirmişlər.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popova Qəbələdə

Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Bolqarıstan Respublikasının vitse-prezidenti xanım Marqarita Popova tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişdir.

Qəbələ şəhərində qarşılanan bolqarıstanlı qonaq rayonun tarixi, mədəni məkanları, fəaliyyət göstərən istehsal müəssisələri və turizm sektoru ilə yaxından tanış olmuşdur.

Sosial-iqtisadi inkişaf və əldə edilən uğurlarla maraqlanan xanım Marqarita Popovaya məlumat verilmişdir ki, bu gün Azərbaycanda mötəbər tədbirlərin keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır, respublikamızı mədəniyyətlərarası dialoqa töhfə verən məkan kimi tanıdır.

Diqqətə çatdırılmışdır ki, bu gün Azərbaycanda regionların sürətli inkişafı ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin bariz göstəricisidir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Qəbələ də qədim və tarixi görkəmini saxlamaqla müasirləşir.

Daha sonra Heydər Əliyev Konqres Mərkəzinə gələn qonağa məlumat verilmişdir ki, 14 avqust 2013-cü il tarixdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Qəbələ rayonuna səfəri zamanı açılışı olan 1200 yerlik, unikal memarlıq üslubuna malik mərkəzdə yüksək səviyyəli tədbirlər keçirilir.

Səfərin proqramına uyğun olaraq xanım Marqarita Popova rayon tarix-diyarşünaslıq muzeyində də olmuşdur.

Muzeyin ekspozisiyasındakı eksponatlarla tanış olan vitse-prezident Qafqaz Albaniyasının 900 il paytaxtı olmuş qədim Qəbələ şəhərinin günümüzədək gəlib çatmış möhtəşəm qala divarının, bürc və darvazasının maketinə və aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinə maraqla tamaşa etmişdir. Muzeydəki xatirə kitabı və tanınmış simaların muzey barədə qeydləri bolqarıstanlı qonaqda xoş təəssürat yaratmışdır.



Rayonun istehsal müəssisələrinə maraq göstərən xanım Marqarita Popova "Beltmann" piano fabriki ilə də yaxından tanış olmuşdur. Bildirilmişdir ki, 2009-cu ildən fəaliyyətə başlayan fabrik hazırda dünyada "Beltmann" markalı pianolar istehsal edən yeganə müəssisədir və burada ildə 1200-1500 pianonun istehsal edilməsi mümkündür.

Səfər çərçivəsində xanım Marqarita Popova "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi və rayonda yaradılmış müasir turizm infrastrukturu ilə də tanış olmuşdur. Qəbələ ilə tanışlıq, rayonda aparılan tikinti-quruculuq və abadlıq işləri bolqarıstanlı qonaqda zəngin təəssürat yaratmışdır. Azərbaycanın dünyada turizm ölkəsi kimi tanınması üçün böyük potensiala malik olduğunu və bu istiqamətdə böyük işlər görüldüyünü qeyd edən vitse-prezident ölkəmizin sosial-iqtisadi inkişafının, bölgələrdə müasir texnologiyaya əsaslanan infrastrukturun, sürətlə inkişaf edən turizm sektorunun iqtisadiyyatımıza verəcəyi töhfələri yüksək qiymətləndirmişdir.

**Zahir KƏRİMOV,**
**RİH informasiya təminatı və təhlil sektorunun aparıcı məsləhətçisi.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN İYUN AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Kürd kəndi | 02.06.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Kiçik Pirəli kəndi | 09.06.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Kötüklü kəndi | 16.06.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Laza kəndi | 23.06.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Vəndam qəsəbəsi | 30.06.2015 | Qəsəbə məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.